HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

30 noyabr 2016-cı il
№022 (36)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## 2017-Cİ İL TƏHSİL İLİ ELAN EDİLDİ



Gürcüstan Prezidenti Georgi Marqvelaşvili hakim partiyanı və ölkə parlamentini mövcud iqtisadi problemləri həll etmək üçün fəal addımlar atmağa çağırıb. Marqvelaşvili bu barədə noyabrın 18-də Kutaisidə keçirilən 9-cu çağırış yeni parlamentin ilk iclasında bəyan edib.

“Bu gün ölkənin ən yaxşı iqtisadi gələcəyini təmin edən, sərmayə cəlb edən, larinin kursunu sabitləşdirən aktiv fəaliyyət, cəsarətli və qeyri-adi addımlar atmaq zamanıdır. Mən vətəndaşların rifahını təmin edən islahatları həmişə dəstəkləyəcəm” – deyən Georgi Marqvelaşvili hakim partiyanı seçkiqabağı verdiyi vədləri yerinə yetirməyə və ölkə qarşısında duran problemləri həll etməyə çağırıb. Prezidentin sözlərinə görə, bunun üçün “Gürcü arzusu”nun bütün imkanı, hər şeydən qabaq da konstitusiya əksəriyyəti var.

Prezident deputatların diqqətini ədliyyə sisteminin inkişafının yeni strategiyasının hazırlanmasının gərəkliliyinə cəlb edərək, bu məsələnin Aİ ilə assosiasiya haqqında müqavilə çərçivəsində həll edilməsi üçün Aİ-nın müvəqqəti olaraq qanunun aliliyi və ədliyyə missiyasını dəvət etməyi təklif edib.

Georgi Marqvelaşvili qeyd edib : “Əgər məhkəmə siyasi təsirdən azad edilməyəcəksə, balans və tarazlıqdan danışmaq mənasızdır. Məhkəmə sisteminin sağlamlaşdırılması gürcü dövlətinin əsas çağırışıdır”.

Prezident təhsili dövlət həyatının vacib sahələrindən biri adlandırıb və aydınlaşdırıb ki, yalnız təhsilli adam daxili, sosial və siyasi azadlığa çata bilər. Bunu əsas götürən prezident 2017-ci ili təhsil ili elan edib.

## SERGEYNKO: ÜMUMİ SƏHİYYƏ PROQRAMI DAVAM ETDİRİLƏCƏK

Gürcüstan Səhiyyə Naziri vəzifəsini icra edən (artıq nazir – red.) David Sergeynko jurnalistlərə ümumi səhiyyə proqramının davam etdiriləcəyi barədə məlumat verib.



David Sergeynko bəyan edib: “Ümumi səhiyyə proqramı davam etdiriləcək. Dəyişikliklər olacaq və bu dəyişikliklər mövcud ehtiyatlardan daha səmərəli istifadə etməyə, daha çox ehtiyacı olanlar üçün bunun əlçatan olmasına istiqamətləndiriləcək. Dəyişikliklər bir neçə istiqamətdə olacaq, lakin onların hər birinin vəzifəsi mövcud büdcə çərçivəsində əhalinin böyük nəticələr əldə etməsi üçün olacaq”.

VƏZİYYƏTDƏN ÇIXIŞ YOLLARI AXTARIŞINDA DÜŞÜNCƏLƏR 2

İNSANIN SƏBİRDƏNVƏ ŞÜKÜRDƏN QAZANDIQLARI 3

İSLAMOFOBİYANIN SİYASİ VƏ STRATEJİ NÜANSLARI 4

YETİMDOYDURAN (al dente) 5

GENDER BƏRABƏRSİZLİYİ NƏDİR? BUNUN QARŞISINI NECƏ ALMAQ OLAR? 6

TƏLXƏYİN DƏRDİ 7

FOLKLORŞÜNAS ELXAN MƏMMƏDLİ HAQQINDA YENİ KİTAB ÇAP OLUNDU 8

## KVİRİKAŞVİLİ: BİZİM SİYASİ QÜVVƏ HAKİMİYYƏTƏ KONSTİTUSİYA ƏKSƏRİYYƏTİ KİMİ GƏLSƏ DƏ, BİZ BUNA İMTİYAZ KİMİ BAXMIRIQ



Bizim siyasi qüvvə hakimiyyətə konstitusiya əksəriyyəti kimi gəlib, lakin biz buna imtiyaz kimi baxmırıq. Bu barədə noyabrın 26-da Gürcüstan parlamentinin növbədənkənar iclasında Gürcüstan baş nazirliyinə namizəd Georgi Kvirikaşvili (artıq baş nazir – red.) bildirib.

Onun sözlərinə görə, bu, “Gürcü arzusu” üçün vacib qərarları yubatmadan qəbul etməsi üçün böyük imkandır.

“Bizim siyasi qüvvə hakimiyyətə konstitusiya əksəriyyəti kimi gəlib, lakin biz buna imtiyaz kimi baxmırıq. Bu, bizim üçün vacib qərarları yubatmadan qəbul etmək üçün böyük imkandır və eyni zamanda bu, əhalimiz qarşısında böyük hesabatdır, biz bunu tam şəkildə başa düşürük. Biz hamını dinləməyə və geniş konsensus əsasında ölkə üçün vacib qərarlar qəbul etməyə hazırıq. Vətəndaşlarımız bilməlidirlər ki, bütün qərarlar dövlətin maraqlarını qorumaqla və dövlətin inkişafı üçün yalnız xalqın xeyrinə qəbul ediləcək” – Kvirikaşvili bəyan edib.

Onun sözlərinə görə, bu gün xalqda hakimiyyətə münasibətdə qorxu yoxdur, cəmiyyət inkişaf edib, siaysi cəhətdən kifayət qədər irəliləyib və siyasətçilərdən tələbləri də başqa cürdür, bunu da bütün siyasətçilər dərk etməlidirlər.

## GÜRCÜSTANDA YENİ HÖKUMƏTİN FORMALAŞMASI BAŞA ÇATDI



Baş nazir Georgi Kvirikaşvili yeni nazirlər kabinetinin üzvlərinin təyin edilməsinə dair fərman imzalayıb.

Baş nazir Kvirikaşvilinin başçılıq etdiyi yeni hökumət komandası öz vəzifəsinin icrasına başlayıb.

Gürcüstan parlamenti noyabrın 26-da hökumətin yeni tərkibini təsdiqləmişdi. Yeni hökumətə etimad üçün 150 deputatdan 110-u səs vermiş, 19 deputat yeni hökumətə etimad göstərməmişdi.

Yeni tərkibi parlament azlığı – “Vahid Milli Hərəkat” və “Vətənpərvərlər Alyansı” müxalifət partiyaları dəstəkləməmişdi. Səsvermədən əvvəl bu siyasi qrumların bəzi nümayəndələri iclas zalını nümayişkaranə şəkildə tərk etmişdilər.

## ONLAYN KREDİTLƏRİN VERİLMƏSİ QADAĞAN OLUNUR

Gürcüstanda onlayn kreditlərin verilməsi qadağan olunacaq və bu cür biznes model daha işləməyəcək. Bu məsələ ilə bağlı müfəssəl məlumat verilməsə də, bildirilib ki, istehlakçı borc götürmək üçün maliyyə təşkilatının ofisində ərizə verməli olacaq. Hökumət rəsmiləri bəyan edirlər ki, onlayn kreditlərin ləğv edilməsi vətəndaşların müəyyən risklərdən yan keçməsinə imkan verəcək.

Maliyyə naziri Dmitri Kumsişvilinin bildirdiyinə görə, dəyişiklik mikromaliyyə təşkilatlarına aid edilməyəcək.

Hökumət Gürcüstan Milli Bankı ilə birlikdə istehlakçıların hüquqlarının müdafiəsinə dair paket hazırlayır. Konkret olaraq hansı dəyişikliklərin planlaşdırıldığı bu paketin hazırlanmasından sonra bəlli olacaq. Onlayn kreditləşmənin ləğv olunması barədə Gürcüstanın baş naziri Georgi Kvirikaşvili və maliyyə naziri Dmitri Kumsişvili noyabrın 29-da hökumətin iclasında məlumat veriblər.



## VƏZİYYƏTDƏN ÇIXIŞ YOLLARI AXTARIŞINDA DÜŞÜNCƏLƏR

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

***Biz belə qəribə adamlarıq, əndərəbadi zadlarıq, küyə gedənik. Birdən xətrinə dəyən olar ha, su içsin. Nədən ki, bilirəm bizim bir balaca da dəymədüşərliyimiz var. Dediyimiz həmin saat bizim xətrimizin harasınasa dəyməlidir. Bunu bilirəm və bildiyim üçün də altını cızaraq söyləyirəm. Bayaqlar dedim biz qəribə, əndərəbadi məxluqatıq. Misal üçün, üstü-başı işıldayan birinin ağzından bir söz çıxdımı himə bənd kimi hamımız ləbbyek deyib onu təsdiqləmək üçün dəridən-qabıqdan çıxır, bir-birimizə macal vermədən özümüzü onun gözünə soxub, az qala demək istəyirik, dərdin alım, gördünmü, mən sənin fikrini alıcı quş kimi göydə qapıb hamıdan qabaq təsdiqlədim. Ya da tünəkənin biri dilini ağzında tərpədən kimi, yazığı peşman atına mindirib, qaragünün ağzını yummalıyıq.***

İndi birimiz ağzımızı açıb desək ki, bizə axan yox, baxan yox, qeydimizə qalan yox. Həmincə saat hamı dil boğaza qoymadan danışana dəm tutub, onun fikrini təsdiqləyəcək və arada, ə, başın haqqı, doğru deyir kimi bir əcayib fikir də səsləndirəcək. Və bundan sonra qar-qur düşməyəcəyinə bir kimsə zəmanət verə bilməz. Nədən ki, ölü-diri yerlərimizdə biz belə həngamələrin dəfələrlə şahidi olmuşuq. Deməyin ki, yalan deyirəm. Mən ucundan tutub ucuzluğuna getsəm gərək açam sandığı, tökəm pambığı. Mən də sandığı açıb pambığı tökdükcə qorxuram, bizim paxırlarımızın üstü açıla. Düzü, bunu da özümə yaraşdırmıram. Deyirəm, dost var, düşmən var, ayıbımız çölə düşməsin. Amma sonra da ağıl edirəm ki, bir-iki zad deməsəm, bağrım yarılar, içim özümü yandırar, çölüm özgəni. Deməsəm gendən baxan da elə bilər ki, bizim hər işimiz cabbacağdır, bizdə qurd quzuyla otlayır.

Hə, onu deyirdim, çoxumuz şikayətçiyik ki, nə hökumət qayğımıza qalır, nə qıraqdan bir qeydimizə qalan var. Bizə qayğı göstərməməkdə gah Gürcüstanı ağ yuyub qara səririk, gah Azərbaycanı topa-tüfəngə tuturuq, gah da Türkiyəni borclu çıxarırıq. Düzdür, bizim bu müddəalarımızda bəzi gerçək məqamların olmasını da deməndən keçmək olmur, bəzi nöqtələrdə umu-küsümüzün də doğru olduğu qənaətindəyəm. Orasını da bilirəm ki, uman yerdən küsərlər. Bunları heç inkar etmək fikrində də deyiləm. Umu-küslərimizi yeri gələndə təbii də saymaq olar. Di gəl ki, qonşuya ümidli olanın şamsız qalması məsəlini də unutmaq olmaz. Üstəgəl, Allahdan buyruq, ağzıma quyruq düşüncəsindən də azad olmamızın vaxtıdır. Kiminsə əlinə baxıb, ələbaxan olmaqdansa, toplumda öz yerini tapmaq daha doğru yol deyilmi?

Əslində mənim demək istədiyim, qabartmaq niyyətində olduğum məsələ başqa bir zaddır. Biz özümüzə güvənərək, özümüzdə güc taparaq bir toplum kimi özümüzü təsdiqləməli deyilikmi? Yüksək səslə, heç kimdən, heç nədən çəkinmədən bunu demək mümkündür. Ancaq bunu deməyin də bir neçə – necə demək, necə ifadə etmək, harada və nə zaman söyləmək kimi "əmmaları" var. Biz özümüzü Gürcüstanın bir parçası sayırıqsa, mütləq dövlət dilini, yəni gürcü dilini öyrənməliyik və bu dili öz dilimiz etməyi bacarmalıyıq. Nədən ki, biz bu dil vasitəsilə gürcü xalqının tarixini, mədəniyyətini, adət-ənənəsini, belə demək mümkünsə gürcü xalqına mıxsus ruhu, fərqliliyi mənimsəyə bilərik və gürcü cəmiyyətini tanıya bilərik. Bundan əlavə bizim gürcü cəmiyyətilə qaynayıb-qarışmamızda öz milli köklərimizdən qopmamaq şərtilə yenilikçi olmamız, elmli, təhsilli, mədəni olmamız da müstəsna əhəmiyyət daşımalıdır. Bunları etmədən, qazanmadan biz heç nəyə nail ola bilmərik. Biz ibtidai cəmiyyətin əşirət davranışlarından, orta əsrlərin cəngavərlik düşüncəsindən arınmadıqca heç bir istəyimizə, elə gürcü cəmiyyətinə inteqrasiya arzumuza da çata bilmərik. Kitab ağzı açmadan, teatra-konsertə getmədən, muzeylərə baş çəkmədən bütün bu sadalananları etmək mümkünmü, əcaba? Əlbəttə, hamımız birağızdan bunun mümkünsüzlüyünü tədiqləyəcəyik. İndi özünüz deyin, biz bunları edə bilmiriksə Gürcüstanın nə günahı, Azərbaycanın nə suçu, Türkiyənin nə qəbahəti? Niyə çinli, hindli Gürcüstana gəlib, gürcü dilini öyrənə bilir və üstəlik ailəsini dolandırmaq üçün bir tikə çörək qazanmaq imkanı əldə edir, çoxlarımız bunu edə bilmirik? Sual çox bəsitdir, cavabı ondan da sadədir – istəmirik...

***...Bu günlərdə Qardabani şəhər mədəniyyət evində Xırdalan şəhərindən gəlmiş gənc musiqiçilərin konsertində salonu doldurmamamızın günahını kimdə axtaraq? Mədəniyyət evinin buz divarlarını bəlkə nəfəsimizlə, ruhumuzla, alqışlarımızla qızdırmamıza ehtiyac var idi? Budurmu bizim mədəni olmaq cəhdimiz, budurmu bizim mədəniyyətimizə münasibətimiz və budurmu bizim uzaq yolları yaxın edib, bizə müftə konsert düzənləyən qonaqlarımıza verdiyimiz qiymət? Başqa vaxt gözümüzü yağır edib, bizə saxta ağsaqqallıqlarını sırımağa çalışan irəlidə gedənlərimiz, başbilənlərimiz hara baxırdılar? Sadə insanlarımıza adi bir xeyirxahlıq etmək üçün bu gözəl fürsəti niyə əldən buraxdılar? Bax, bunu mən anlamıram...***

## İSFAHAN ŞAMİLOV VƏFAT ETDİ



İsfahan Şamil oğlu Şamilov 1952-ci il oktyabr ayının 26-da Bolnisi rayonunun Abdallı kəndində anadan olmuşdu. O, 1967-ci ildə Abdallı səkkizillik, 1969-cu ildə isə Darvaz orta məktəbini bitirmişdi.

1969-cu ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun əmtəəşünaslıq fakültəsinə daxil olan İsfahan Şamilov 1974-cü ildə ali təhsilini başa vuraraq doğma yurduna qayıtmış, 1975-ci ildən Kazreti qəsəbəsində ixtisası üzrə əmək fəaliyyətinə başlamışdı.

Uzun müddət texnoloq, kənd təsərrüfat sədri, bələdiyyə məclisinin sədr müavini vəzifələrində çalışmış İsfahan Şamilov bütün varlığı ilə torpağa, elə bağlı idi. 2008 – 2012 illərdə Gürcüstan parlamentinin deputatı olduğu müddətdə parlamentin aqrar, insan hüquqları kimi komitələrində çalışmış və Gürcüstan – İran dostluq qrupunun fəal üzvlərindən olmuşdu.

Üç övlad atası idi.

İsfahan Şamilovun əziz xatirəsi onu tanıyanların qəlbində yaşayacaqdır.

Allah rəhmət eləsin!

"Yeni Yol"

## GÜRCÜSTAN TERRORİZMİN ƏN AZ TƏSİR ETDİYİ ÖLKƏLƏRİN SİYAHISINA DÜŞÜB

Global Terrorism Index 2016 tədqiqatlarına əsasən Gürcüstan terrorizmin ən az təsir etdiyi ölkələrin siyahisina düşüb. Gürcüstan 1,257 balla 163 ölkə arasında 87-ci yeri tutub. Azərbaycan 0,346 balla daha yaxşı nəticə göstərərək siyahının 108-cisi olub.

Gürcüstanın qonşuları arasında terrora ən çox məruz qalan ölkə Türkiyədir. 6,738 balla Türkiyə siyahının 14-cüsü olub. Rusiyada da terrorizmin təsir səviyyəsi yüksəkdir. Rusiya 5,43 balla 30-cu yeri tutur. Siyahının liderləri İraq, Əfqanıstan, Nigeriya, Pakistan və Suriyadır.

Terrorizmin təsiri olmayan ölkələrin sayı 34-dür. Latviya, Litva, Polşa, Slovakiya, Sloveniya, Vyetnam onların arasındadır. Global Terrorism Index ayrı-ayrı ölkələrin terror fəallağını müəyyənləşdirir və hansı ölkələrin terror təhlükəsi ilə üzləşməsini nümayiş etdirir. İndeksi Avstraliyanın Sülh və İqtisadiyyat İnstitutu tərtib edib.

Reytinqin tərtib olunmasında Merilend Universitetinin nəzdində fəaliyyət göstərən terrorizmin öyrənilməsi üzrə Milli Konsorsiumun məlumat bazasının materiallarından istifadə olunub. Bu, son onilliklərdə baş verən terror aktları haqqında informasiyaların daxil olduğu ən böyük məlumat bazasıdır.

## YENİ İLİN BAYRAM EDİLMƏSİ ÜÇÜN 8 MÖCÜZƏVİ ŞƏHƏRDƏN BİRİ TBİLİSİDİR



Məşhur turist portalı Belive yeni ilin bayram edilməsi üçün dünyanın 8 möcüzəvi şəhəri barədə söhbət açıb.

"Belive"nin tərtib etdiyi reytinqdə dünyanın bu səkkiz şəhərini Yeni il gecəsi cazibadar edən gözəllikləri barədə fikirlər səsləndirilib.

Reytinqdə ABŞ-ın Nyu-York şəhəri, Çexiyanın paytaxtı Praqa, Rusiyanın paytaxtı Moskva, Fransanın paytaxtı Paris, Polşanın paytaxtı Varşava, Finlandiyanın Rovaniemi şəhəri, Avstriyanın paytaxtı Vyana və Gürcüstanın paytaxtı Tbilisidə turistləri gözləyən sürprizlər barədə məlumatlar verilib.

"Belive" ölkəmizin paytaxtında Yeni il gecəsinin əlamətdarlığını bu şəkildə təqdim edib: "Yeni ili orada səs-küylü və şən keçirirlər. Küçələr zəngin şəkildə bəzədilir, pirotexnikaya pul verməyə isə heç kim xəsislik etmir. Oraya yola düşməklə gözəl mənzərələrdən tam mənası ilə ləzzət almaq, ləzzətli gürcü mətbəxindən dadmaq və sadəcə ümumi bayram və dostluq mühitinə baş vurmaq olar".

## GÜRCÜSTAN HÖKUMƏTİ 2017-Cİ İLDƏ PENSİYALARI ARTIRMAĞA HAZIRLAŞMIR

Gürcüstan hökuməti 2017-ci ildə pensiyaları artırmağa hazırlaşmır. Bu barədə baş nazir postuna namizəd (artıq baş nazir – red.) Georgi Kvirikaşvili noyabrın 25-də parlament azlığının nümayəndələri ilə görüşündə bildirib.

"Biz 2017-ci il büdcəsində pensiyaları artırmağı qərara almamışıq. Burada gizlətməli heç nə yoxdur və biz yalan danışmaq istəmirik, bu, gerçəklikdir" – Kvirikaşvili deyib.

Təqdim olunan hökumət proqramına uyğun olaraq yaxın dörd ildə yeni hökumət pensiya sistemini tamamilə dəyişdirmək niyyətindədir.

Xüsusi sektorun işçiləri üçün yığım pensiyası tətbiq olunacaq. Beləliklə, əməkçilər öz əmək haqlarına uyğun məbləğ toplaya biləcəklər. Bununla belə, pensiyaların toplanmasında işçinin özü, işəgötürən və dövlət iştirak edəcək.

Hal-hazırda Gürcüstanda pensiyaçılar ayda 180 lari alırlar. 2016-cı ilin oktyabrında yaşayış minimumu isə 160,1 lari təşkil edib.

Pensiyaların inflyasiyaya görə indeksləşdirilməsi o deməkdir ki, pensiyalar inflyasiya ilə paralel olaraq artırılacaq. Beynəlxalq Valyuta Fondu 2017-ci ildə Gürcüstanda 3% həcmində inflyasiya proqnozlaşdırıb. Əgər indeksləşdirmə tətbiq olunarsa, onda 180 larilik pensiya 3%, yəni 5,4 lari artacaq.

Gürcüstan Milli Bankı 2018-ci ildə inflyasiyanı 4% səviyyəsində nəzərdə tutur. Bu isə pensiyanın 5,5 lari artacağı və 188,5 lariyə çatacağı deməkdir.

## QARDABANİDƏ QILINCOYNATMA ÜZRƏ AÇIQ BİRİNCİLİK KEÇİRİLİB

Noyabrın 26-27-də Qardabani 3 saylı məktəbinin idman zalında Qardabani bələdiyyəsi idman mərkəzinin təşkilatçılığı ilə qılıncoynatma üzrə beynəlxalq açıq birincilik keçirilib. Turnir Gürcüstanın əməkdar məşqçisi Roza Coluquanın xatirəsinə həsr edilib.

Yarışda 2000, 2001, 2002, 2003, 2004, 2005-2006-cı illərdə anadan olmuş Gürcüstan idmançıları ilə yanaşı Azərbaycanın və Ermənistanın məktəbli idmançıları da iştirak etmişlər. Turnirin qalibləri müvafiq diplom və kuboklarla mükafatlandırılıblar.

## TBİLİSİDƏ TÜRK FOTOQRAFLARININ FOTOSƏRGİSİ KEÇİRİLİB




Bu günlərdə Tiflisdəki "İst Point" ticarət mərkəzində Türkiyənin Gürcüstandakı səfirliyinin, Yunis Əmrə Mədəniyyət Mərkəzinin və Anadolu Agentliyinin təşəbbüsü və təşkilatçılığı ilə Anadolu Agentliyi fotoqraflarının Türkiyədə iyulun 15-də hərbi çevriliş cəhdi zamanı çəkdikləri fotoların sərgisi keçirilib.

"15 İyul Milli İradənin Yüksəlişi" adlı tədbirdə Türkiyənin Gürcüstandakı səfiri Zeki Levend Gümrükçü, Anadolu Agentliyinin Asiya-Qafqaz Bölgəsi üzrə təmsilçisi Tolga Özgenç, Yunis Əmrə İnstitutunun əməkdaşları, iş adamları iştirak ediblər. Sərgidə Anadolu Aagentliyinin təqdim etdiyi 57 foto sərgilənib.

Türkiyə səfiri Zeki Levend Gümrükçü jurnalistlərə açıqlamasında Tiflisdə AA-nın sərgisinin Gürcüstan paytaxtında açılmasını yüksək qiymətləndirib və bu sərgiyə Türkiyə Cümhuriyyətinin 28 oktyabrda təşkil olunan milli bayramında Gürcüstanın baş naziri Giorgi Kvirikaşvilinin və digər dövlət rəsmilərin də baxdığını bildirib.

Səfir 15 iyul çevriliş cəhdi günü baş verən mücadilənin qürurunu yaşadıqlarını bildirib: "Biz çevriliş cəhdini yaşadıq və o gün apardığımız mücadilənin qürurunu yaşayırıq. Bu gün fotoqraflarımızın sərgisində Türkiyə vətəndaşlarımızın da bizi yalnız buraxmamasını yüksək qiymətləndiririk. O gecə xalqımız qəhrəmanlıq göstərdi. Bu gün bizim çevriliş yürüşünə dəstək verənlərlə birgə mücadiləmiz davam edir. Çünki Türkiyə demokratiyasının sağlam bir şəkildə davam etməsi bütün bölgə və dünya üçün böyük önəm daşıyır".




## QARDABANİDƏ XIRDALAN MUSİQİÇİLƏRİNİN KONSERTİ OLUB

Noyabrın 25-də Qardabani şəhər mədəniyyət evində Tbilisidəki Mirzə Fətəli Axundzadə adına Mədəniyyət Mərkəzinin təşkilatçılığı və Qardabani bələdiyyəsinin dəstəyi ilə Azərbaycan Respublikasının Abşeron rayonundakı Xırdalan şəhərində fəaliyyət göstərən musiqi məktəbinin musiqi kollektivinin konserti olub. Xırdalan musiqiçiləri tamaşaçılar qarşısında instrumental musiqidən və Azərbaycan xalq mahnılarından, eləcə də Azərbaycan bəstəkarlarının mahnılarından ibarət geniş konsert proqramı ilə çıxış ediblər.

Xırdalan musiqiçilərinin konserti gənc nağaraçalanların ritmik nömrəsi ilə açılmış, onların çıxışından sonra səhnə müğənnilərə verilmişdir. Xalq çalğı alətləri ansamlının müşayiəti ilə gənc solistlər – Atlas Mehdiyeva və Ağasəf Əhlimanovun ifa etdikləri "Qarabağ şikəstəsi" alqışlarla qarşılanmışdır. A. Əhlimanovun ifa etdiyi Ə. Tağıyevin "Azərbaycan oğluyam", A. Mehdiyevanın oxuduğu Ə. Tağıyevin "Azərbaycan



qızıyam", Sənan Tağızadənin ifa etdiyi saz havası "Ruhani", Qasım Əliyevin ifasında Ə. Məmmədovun "Mənim Azərbaycanım", Ceyhun Cəfərovun ifasında xalq mahnısı "Leyla", İntizam Qasımovun oxuduğu R. Məmmədovanın "Nə vaxta qaldı" mahnısı və digər çıxışlar tamaşaçılara xoş anlar yaşatmışdır.

Tamaşaçılar ansamblın çıxışını da yüksək qiymətləndirmişlər

## MARNEULIDƏ MÜASİR TƏDRİS MƏRKƏZİ AÇILDI

Marneuli rayonunda müasir tədris mərkəzi açılıb. Tədris mərkəzinin açılışında Kvemo Kartli bölgəsinin qubernatoru Paata Xizanişvili, Marneuli Rayon İcra Hakimiyyətinin başçısı Merab Topçişvili, Gürcüstan parlamentinin deputatları Ruslan Hacıyev və Tamaz Naveriani, rayon bələdiyyəsinin sədri Nəbi Abdullayev, barış və inteqrasiya məsələləri üzrə dövlət nazirinin müşaviri Zaur Dargalı, Azərbaycan səfirliyinin nümayəndəsi Samirə Ağayeva iştirak ediblər.

Qubernator Paata Xizanişvili bu mərkəzin Marneulidə yaşayan milli azlıqların gürcü dilini öyrənmələrində müstəsna rol oynayacağını bildirib. O, belə bir mərkəzin azərbaycanlıların təşəbbüsü ilə açılmasını nümunəvi addım kimi qiymətləndirib.

Merab Topçişvili bu tədris mərkəzinin xalqlarımız arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsinə böyük töhfə verəcəyinə inamını ifadə edib.

## ŞƏRQİ GÜRCÜSTANDA YENİ ÜSULLA YOL ÇƏKİLİR

Poniçala-Marneuli-Quqiti yolunun 300 metrlik sahəsində innovasiya metodu ilə əsas yolun çəkilməsi uğurla başa çatıb.

Klassik metodla müqayisədə yeni yolun hər kvadratmetrinin salınması iki dəfə ucuz, yəni 5-6 dollara başa gəlir. Yeni üsul Avropada fəal istifadə olunur, artıq Azərbaycanda da sınaqdan keçirilib.

Yolun çəkilməsi üzrə işləri Azərbaycanın "Aqete" şirkəti pulsuz həyata keçirir. Bu üsulun mahiyyəti yolların təməlinin möhkəmliyinin artırılmasında onun etibarlılığını və istismar müddətini artırmaqdan ibarətdir. Bu metod yolların tez və ucuz bərpasına imkan verir.

2017-ci ildə bu metod Kirovakan-Kumurdo yolunda və Jinvali-Barisaxo-Şatili yolunun üç kilometrlik sahəsində istifadə olunacaq.

Poniçala-Marneuli-Quqiti avtomagistralının təmiri yaxın vaxtlarda başa çatacaq.

Təqribən 19,1 milyon dəyəri olan layihəni Gürcüstanın İnfrastruktur və Regional İnkişaf Nazirliyinin avtomobil yolları departamenti maliyyələşdirir.

Layihə çərçivəsində Bolnisi və Dmanisidə yollar, avtopavilyonlar, ictimai nəqliyyat dayanacaqları üçün meydançalar, yol kənarları yenilənəcək, yol işarələri qoyulacaq, su arxları düzəldiləcək.

## İNSANIN SƏBİRDƏN VƏ ŞÜKÜRDƏN QAZANDIQLARI



Hacı BƏKİROĞLU
*kafkasli@mail.ru*

**Bu dəfəki yazımda cəmiyyətimizin əsas problemlərindən biri olan səbr etmək və şükr etmək haqqında yazmaq istəyirəm. Əsas problem dedim, çünki doğrudan da başımıza gələn hadisələr haqqında nə səbr edirik, nə də şükr edirik.**

Bir adam Peyğəmbər Əfəndimizin yanına gələrək belə soruşdu: "Ey Allahın rəsulu, mənə elə bir şey xəbər ver ki, onu etdikdə Cənnətə layiq olum!.."

Peyğəmbər Əfəndimiz belə cavab verdi: "Allahın sənin haqqındakı təqdirinə ya səbirlə, ya da şükürlə cavab ver, Cənnətə layiq hala gələrsən."

Bəli, məruz qalınan ilahi təqdirlərə səbir, ya da şükürlə cavab vermək... Bəs niyə "ya səbir", ya da "şükür"? Çünki möminə xas xüsusiyyətdir səbir və şükür... Bu xüsusiyyəti sayəsində inanan insan, həyatda qarşılaşdığı hər bir vəziyyəti öz xeyrinə çevirə bilər. Necə ki, Peyğəmbər Əfəndimiz (s.ə.s), mömінin hər halını xeyirə çevirən bu xüsusiyyətini bizlərə belə xəbər vermişdir:

"Möminin halına heyrət edilir. Kədərli bir hadisəylə qarşılaşsa səbr edər və qazanar; sevindirici bir hadisəylə qarşılaşsa, şükr edər yenə qazanar. Yəni mömin bu xüsusiyyəti sayəsində hər hadisəni öz xeyrinə çevirə bilər. Beləcə təvəkkül və təslimiyyəti ona həmişə qazanc gətirər."

Çünki başımıza imtahan olaraq gələn bəla və müsibətlər belə bizim üçün xeyirdir. Heç olmasa bizim fərqində olmadığımız xeyirli bir nəticəsi vardır…

Amma bir tərəfdən də "qəbul olmayan dualar"ın nəticəsinə nəzər saldıqda, əslində o istəyimizin özümüz üçün də xeyirli olmadığını görərik. Bəzən də səbəb və hikmətin incəliklərini fərq edə bilmədiyimiz üçün özümüzü geri çevrilmiş, əli boş, üzünə baxılmamış incik bir qul olaraq görərik. Halbuki, dua qulun Rəbbindən "özü üçün xeyirli olan"ı istəmək və "özü üçün xeyirli olan seçkisini quluna sevdirməyi", Rəbbinin istədiyi şeyi qulun da diləyə bilməsini tələb edib, səbəblərini "Vəkil"im sənsən dediyi Rəbbinə buraxmaqdır.

Nəhayət dua, qulun Rəbbinə: "Mənim üçün xeyirli olanı sən ver... Seçkilərimi, bu dünyaya aid hikmətini və nəticələrini bilmədiyim, qavraya bilmədiyim hadisələrin gedişatını və istiqamətini sənə buraxdım" – demək deyilmi və ya əslində belə olmamalıdırmı? Bu, "qədərçilik"dirmi, yoxsa onu həyat taxtımızın başına oturdub, "Ey Rəbbim, həyatım sənin əlindədir, necə yazarsansa yaz; amma mənə həmişə mənim üçün də, sevdiklərim üçün də xeyirli olanı ver. Mənim üçün xeyirli olan, mənim istəyim deyilsə, o xeyiri mənə sevdir. Çox istədiyim şey, mənə əslində ağrıdan, hüzndən, ya da müsibətdən başqa şey verməyəcəksə, onu istəklərimdən də, ürəyimdən də uzaqlaşdır" deyərək, xüsusiyyətini, ya da nəticəsini, yəni HİKMƏTİNİ bilmədiyimiz istəkləri Hikmət Sahibinin hikmətinə buraxmaqdırmı?

Əlbəttə, qədərdəki "cüzi iradə"dən bizə düşən pay olduğu qədər, "Cüzi Hikmət"dən də payımız və bu istiqamətdə Rəbbimizdən diləyimiz olmalıdır. Amma hikmət, yalnız "Rəbbim, mənə hikmət ver." deməklə deyil, Allahdan, ONU incitməkdən qorxaraq yaşamaqla olar. İçində Allah qorxusu olmayanda hikmət də meyvə verməz. Onun dilədiyi kimi yaşamadıqca, ürəyinizdə cüzi bir ləkə belə olsa, xeyri şərdən, haqqı batildən, ilhamı vəsvəsədən, bəlanı rəhmətdən ayıran "Furqan Gülü"nün toxumları heç könülünüzə düşmədən quruyub gedər. Yəni demək ki, istəmək qədər, o istəklərə özümüzü hazırlaya bilmək də lazım olurmuş və vəsilələrə söykənib Rəbbinə ancaq elə təvəkkül etmək, Onun "əl-Lətif" adını könülümüzdən iç aləmimizə uzanan bir ayna kimi tutub səbəbləri və hikmətləri o adın nuruyla görmək lazım olurmuş...

İmtahanım, üzərimdəki öhdəçiliyim ağırdır deyib, fəryad etmək yerinə, kiçik qarışqaların özlərindən böyük yükləri daşıdıqlarını gör və onlardan ilham al... Allah kimsəyə çəkə bilməyəcəyi yükü yükləməz! Ancaq bu da Allahın ona əmr etdiyi vəzifələrdən qaçmalı olduğu mənasına gəlməməlidir.

**Onu da qeyd etmək lazımdır ki, yuxarıda da vurğuladığımız kimi, bəla və müsibətlərə səbir etməkdən aldığımız qədər mükafatı, sevincli olduğumuz zaman da bu sevinci bizə nəsib edən Allahı unutmayıb, şükür etdiyimiz zaman da qazana bilirik. Şükür həyatımızın hər anında olmalıdır. Bu gözəlliyi görən gözlər üçün, ehtiyacımızı qarşılayan əllər üçün, dərdimizi anladan dil üçün və neçə-neçə orqan üçün Allaha nə qədər şükür etsək azdır.**



## İSLAMOFOBİYANIN SİYASİ VƏ STRATEJİ NÜANSLARI

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

**Hər gün keçdikcə dünyada islamofobiya təzahürləri və təzahüratları artmaqdadır. 11 sentyabr 2001-ci il hadisəsindən sonra islama qarşı yaradılan süni nifrət və qorxu hissləri geniş vüsət almaqdadır. Bəzən, ayrı-ayrı dövlətlərin siyasi elitası açıq şəkildə islama qarşı neqativ düşüncə tərzləri formalaşdırır və onu ictimai şüur kimi cəmiyyətə həzm etdirirlər. Bununla da, cəmiyyətin müxtəlif düşüncəli təbəqələri stereotiplərə qapılır və onlarda ksenofobiya (qorxu və nifrət) meylləri güclənir. Multikulturalizm, mədəniyyətlərarası dialoq kimi sağlam idealogiyalar donuna bürünərək Avropa və dünyanın bir sıra ölkələrinin siyasi "fiqurcuq"larının islama qarşı çağırışlarla siyasi dividendlər əldə etmək niyyətləri də yetərincədir.**

Cari ilin noyabr ayında İsrail parlamentinin azana qarşı məhdudiyyətlərin tətbiq edilməsi haqqında qanun layihəsini təsdiq etməsi bariz bir islamofobiya nümunəsidir. Əslində, bir yəhudinin haqlarının qismən pozulmasını "antisemitizm" adlandıraraq dünyanın siyasi leksikonuna yeni termin gətirən də məhz İsraildir. Ərəblərin tarixi ərazisi olan Fələstin torpaqlarını işğal nəticəsində əlindən alan İsrail, indi də qəsbetməni dini müstəviyə daşımaqdadır. İslam dünyasında ən mühüm məscidlərdən olan Məscidi əl-Aksaya müsəlmanların girişinin İsrail hökuməti tərəfindən qadağan edilməsi siyasi hakimiyyətin sionizm idealogiyasına bürünməsi nəticəsində baş verə bilər. "Əl içi" boyda olan bir dövlətin böyük İslam dünyasına qarşı geninə-boluna meydan oxuması və bundan zərrə qədər də çəkinməməsinin səbəbləri Ağ evdə gizlənir. ABŞ-ın yeni prezidenti Tramp da islam dininə simpatiyasının olmamasını seçkiqabağı vədlərində dilinə dolamışdır.

İslamofobiyanın siyasi baxımdan ictimailəşdirilməsi prosessində İsveçrə "qabaqcıllar" sırasında olan ölkələrdən biridir. İslam dininin İsveçrədə inkişafı və onun bu ölkədə dərinləşməsinin qarşısını almaq məqsədi ilə inanc özgürlüyünə zidd bir qanunun qəbul edilməsinə başqa cür ad vermək olmaz. Qeyd edək ki, 2009-cu ildə bu ölkədə minarələrin tikilməsinə və azanın səslənməsinə yasaq gətirilmişdir.

Bəzi ölkələrdə islama qarşı ikili standartların tətbiqi, dini ayinlərin yerinə yetirilməsinə qoyulan hüquqi qadağalar arxasında da islamofobiya motivləri sezilir. 2012-ci ilin yayında Almaniyanın Köln əyalət məhkəməsinin sünnətin qadağan edilməsinə dair hökm çıxarması və mövzunun Almaniya bundestaqınadək gedib çıxmasında da ikili yanaşmalar nəzərdən qaçmamalıdır. Lakin, burada dünyanın ən diqqətcil və dəqiq xalqı kimi tanınan almanlar azacıq "diqqətsizlik" və "qeyri-dəqlik" etmişdilər. Çünki, sünnət islam dini ilə yanaşı yəhudi dininə görə də dini ayin hesab edilir. Həm yəhudilərin, həm də müsəlmanların qəti etirazlarından sonra sünnət prosedurna "həkim icazəsi" "qəmbərqulu"su qoyan alman hökuməti süni yaradılmış problemi aradan qaldırmağa nail oldu. Tam əminliklə söyləmək olar ki, Almaniya məhz yəhudilərə görə güzəştə getdi.

Fransa və Danimarka mətbuatında islami dəyərlərin aşağılanmasına dövlət rəsmilərinin rekasiya verməməsi və yaxud da həssas məsələlərdə arzuolunmaz olaylara qarşı qabaqlayıcı tədbirlər görməməsi müsəlmanların təhqir olunmasına bərabərdir. Yuxarıda adı gedən dövlətlərin çeşidli mətbuat orqanlarında İslamın terrorla eyniləşdirilməsinə nə yazıq ki, bu ökələlərin siyasi hakimiyyətləri böyük iştahla yanaşmaqdadırlar.

**Əslində, dünyadakı münaqişə ocaqlarının ard-arda islam coğrafiyasına aid ölkələrdə tüğyan etməsinin və milyonlarca günahsız insanların qan gölündə boğulmasının bəlli bir demoqrafik siyasətin ayırılmaz parçası olduğu səhv kimi qiymətləndirilməməlidir. Keçmişdə dini və milli dəyərlərin təhqir edilməsi üzərindən siyasət çevirənlərin aqibətlərinin nə ilə nəticələndiyini isə tarixin səhfələrindən yaxşı bilirik.**

## TRAMPIN BAKI-TBİLİSİ-BATUMİ OXU

***Biznesmen-milyarder Donald Trampın ABŞ-ın 45-ci prezidenti seçilməsi çoxlarını onun Azərbaycan və Gürcüstanın da xüsusi yer tutduğu ABŞ-dan kənardakı "nişanə" investisiyalarını yada salmağa vadar etdi.***

***Donald Tramp yaxın vaxtlaradək "Avropa istiqamətində" özünün investisiya fəallığını faktiki olaraq məhz bu Cənubi Qafqaz ölkələrilə, habelə Türkiyə ilə məhdudlaşdırmışdı. Avropanın digər ölkələrində Tramp hələlik "Tramp qülləsi"nə bənzər genişmiqyaslı layihələrə heç başlamayıb da.***

Bununla belə ilk "Tramp qülləsi" Azərbaycan paytaxtında yüksəlməyə başlayıb. Donald Tramp Azərbaycan biznesmeni, Garant Group holdinqinin sahibi Anar Məmmədovla Bakıda Trump International Hotel and Tower-in tikilməsi haqqında müqavilə imzalayıb.



Bakının əsas prospektlərinin kəsişməsində dayanan futurizm üslubundakı yelkən formalı bina Trump International Hotel & Tower Baku adını daşıyacaq. 130 metr hündürlüyü olan bina 33 mərtəbəlidir. Trampın Bakı qülləsinin tikintisi 2008-ci ildə başlayıb. Tikintinin gedişi ilə maraqlanmaq məqsədilə Donald Trampın qızı İvanka Tramp 2014-cü ildə Bakıda olub.

2014-cü ildə Tramp bu otelin tikintisini şərh edərək vurğulamışdı ki, Trump International Hotel & Tower Baku ən qabaqcıl layihələrdən biridir və Trump Organization şirkətinin dəyişməz keyfiyyət standartlarını ifadə edir. 2015-ci ildə fasadın bütün bayır işləri başa çatdırılıb, yaxın zamanlarda bina istismara veriləcək.

Azərbaycandan sonra Donald Trampın diqqətini investisiya istiqaməti kimi Gürcüstan cəlb etmişdi. 2012-ci ilin aprelində Batumidə 47 mərtəbəli göydələnin inşasına aid layihənin təqdimatında iştirak etmək üçün Donald Tramp xüsusi olaraq Gürcüstana gəlmişdi. Milyarder Tbilisidə 300 milyon dəyərində ikinci göydələnin tikiləcəyini də vəd etmişdi.

Tbilisidə və Batumidə iki göydələnin – Trump Tower Tbilisi və Trump Riviera-nın tikintisi barədə müqaviləni Gürcüstanın o zamankı prezidenti Mixeil Saakaşvilinin iştirakı ilə SRG-nin prezidenti Georgi Ramişvili və Donald Trampın özü imzalamışdı. Batumidəki Trump Tower göydələninin tikintisi yaxın zamanlarda yenidən başlayacaq. O, Nyu-yorkun John Fotiadis Architects arxitektura firması tərəfindən layihələşdirilib.

"Tramp qüllələri"nin postsovet məkanı ölkələrindən ilk olaraq məhz Azərbaycanda və Gürcüstanda meydana çıxması çox rəmzidir və uzaqgörən və strateji düşüncəyə malik sərmayəçilərin Tbilisi-Bakı oxunun regionun inkişafındakı mühüm əhəmiyyətini əvvəlcədən başa düşmələrini göstərir. Donald Trampın strateji düşüncəsinə heç bir şübhə yoxdur, əks təqdirdə o, ABŞ prezidenti ola bilməzdi. Bu gün o, Gürcüstanın və Azərbaycanın inkişafına yeni keyfiyyətdə yardım edə bilər.

"Tramp qüllələri"nin meydana çıxmadığı, çətin ki, meydana çıxa, – yeganə Cənubi Qafqaz ölkəsi Ermənistan Respublikasıdır. Təcavüzkar siyasətilə özünü beynəlxalq təcridə giriftar etmiş bir ölkə ciddi sərmayədarlar üçün sadəcə maraqlı deyil.

*Hazırladı: Elsevər Əhmədov*

## ABŞ-DA NƏHƏNG NEFT YATAĞI AŞKARLANIB

ABŞ-ın Geoloji Xidmət idarəsi Texasda nəhəng Wolfcamp neft-qaz yatağının aşkarlanması barədə məlumat yayıb.

Yeni ehtiyatların aşkarlanması çoxdan neft və qaz əldə edilən ərazidə mümkün olub. ABŞ Geoloji Xidmətinin (USGS) ekspertləri bu günlərdə yeni yataqların böyük potensiala malik olması haqqında söhbət açıblar.

USGS-in dəyərləndirməsinə görə, tapılmış neft ehtiyatları 20 milyard barel, qaz 453 milyard kubmetr, qaz kondensatı isə 1,6 milyard kubmetr ola bilər. Bu, 2013-cü ildə aşkarlanmış Şimali Dakotadakı Bakken yatağının ehtiyatlarından üç dəfə çox deməkdir.

ABŞ-ın Enerji İnformasiyası İdarəsinin məlumatlarına görə, 2015-ci ildə ölkə 7,1 milyard barel neft və neft məhsulları istehlak edib. Beləliklə, Texas yatağının ehtiyatları ölkənin illik neft isehlakından təxminən üç dəfə çoxdur.

Wolfcamp yatağını işlətmək hüququ ConocoPhillips, Concho Resources və Pioneer Natural Resources şirkətlərinə məxsusdur. WTI markalı neftin cari qiymətlərini (1 bareli 45 dollar) nəzərə almaqla tapılmış ehtiyatların dəyəri 900 milyard dollar səviyyəsində dəyərləndirilir.

Xatırladaq ki, yaxınlarda Alyaskada daha bir nəhəng neft yatağı da aşkarlanmışdı.

## İSVEÇRƏDƏ MACDONALD'S RESTORANLARI BAĞLANDI

İsveçrə inanılmaz yüksək həyat səviyyəsilə və öz vətəndaşlarının qayğısına qalmaqla fərqlənən kiçik Avropa ölkəsidir. Bu səbəbdən də İsveçrə öz ərazisində Makdonad's restoranlarının hamısını bağlayıb.

Kənd təsərrüfatı üzrə Avropa komissarı Daçan Çoloşun Bolqarıstan, İspaniya, Almaniya və digər Avropa ölkələrindən fastfudların qanunla qadağan olunmasını tələb edən 120-dən çox şikayət qəbul etməsindən sonra, İsveçrədə belə kəskin addım atılıb.

Xatırladaq ki, 2009-cu ildə guya təbii İtaliya pendiri olan məhsulda yüksək miqdarda dioksin aşkarlandıqdan sonra Avropada ərzaq qalmaqalı baş vermişdi. 2011-ci ildə isə eyni vaxtda Almaniyada və Çində "üzvi" tərəvəzdə E.coli bağırsaq çöpü aşkarlanmışdı.

Üstəlik, məşhur ingilis aşbazı Ceymi Oliver məhkəməni qazanaraq Makdonaldsda burgerlərin çəhrayı lildən hazırlandığını sübut etmişdi.

Və artıq isveçrəlilərin səbr kasaları daşmış və onlar öz ərazilərində Macdonald's restoranlarını bağlamışlar. Ehtimal ki, Avropa İttifaqının inkişaf etmiş ölkələrinin hamısı onların nümunəsini davam etdirəcəklər. Qaçqınların Avropaya axınlarını nəzərə alsaq köhnə Macdonald'sların yerində yəqin ki, ən təbii inqredyentlərdən hazırlanan "Ən dadlı dönərlər" açılacaq.

## YUNİSEF: HƏR BEŞ UŞAQDAN BİRİ YOXSULLUQ HƏDDİNDƏ YAŞAYIR

**Gürcüstanda hər beş uşaqdan biri yoxsulluq həddində yaşayır, hər altı uşaqdan birinə isə yaşayış minimumundan az vəsait düşür.**

Bu barədə noyabrın 21-də BMT Uşaq Fondunun (YUNİSEF) həyata keçirdiyi araşdırmada söhbət açılır. Araşdırmada 2015-ci il ərzində Gürcüstan əhalisinin rifahı məsələsi tədqiq olunub.

Tədqiqat iki ildən bir keçirilir. Tədqiqatda Gürcüstanda yaşayan 4 500 ailə iştirak edir. YUNİSEF ekspertləri bu müddət ərzində həyatlarının necə dəyişməsini müəyyənləşdirmək üçün eyni ailələrdən məlumat toplayırlar.



Araşdırma aşağıdakı göstəricilər üzrə keçirilib: nisbi yoxsulluq (gəlirlər qida, mənzil, geyim, istilik kimi minimal tələbatı ödəmir və ya yalnız bioloji yaşamı təmin edən minimal tələbatı ödəyir), maddi deprivasiya (elə bir vəziyyətdir ki, körpə və ya kiçik uşaq bir neçə həftə və daha çox müddətdə anası ilə sıx əlaqədən məhrum olur), subyektiv yoxsulluq (bu yoxsulluq konsepsiyası fərdin fikirlərinə əsaslanır, yalnız o, özü yoxsul olub olmadığını müyyənləşdirə bilir) və sosial bərabərsizlik (ayrı-ayrı fərdlər sosial iyerarxiyanın müxtəlif pillələrində yerləşir və həyati tələbatın ödənilməsinin qeyri-bərabər imkanlarına malikdirlər).

Tədqiqatda qeyd olunur ki, Gürcüstanda yoxsul ailələrin uşaqları təhsil müəssisələrində oxumaq imkanlarına öz varlı həmyaşıdlarına nisbətən daha az sahibdirlər.

"Gürcüstan pensiya və məqsədli sosial yardımların köməyi ilə yoxsulluqla mübarizə sahəsində böyük tərəqqiyə nail olub. Yoxsulluq göstəricisi azalıb, lakin uşaqlar hələ də ən az müdafiə olunan qrup olaraq qalır" – BMT Uşaq Fondunun Gürcüstandakı nümayəndəsi Layla Omar Qad vurğulayıb.

Onun sözlərinə görə, Gürcüstanın sosial sistemi bu gün əhalinin, xüsusilə də uşaqların qarşısında duran sosial çağırışlara cavab verməlidir.

"İndi uşaq hüquqlarının qorunması heç vaxt olmadığı kimi gərəklidir, bu, güclü və sabit cəmiyyətin formalaşması üçün vacibdir. Müdafiəsiz uşaqlar üçün çox sərmayə lazımdır, yoxsa inkişafımız zəif, bərabərsizlik çox, sabitlik isə az olacaq" – o, qeyd edib.

Araşdırma uşaqsız ailələrə nisbətən uşaqlı ailələrdə yoxsulluq göstəricisinin bir qədər çox olduğunu göstərib. Bununla bərabər uşaq yoxsulluğu kəndlərdə şəhərlərə nisbətən 50% çoxdur.

Araşdırmada ifrat yoxsulluq səviyyəsinin azaldığı da qeyd olunub.

Müqayisə üçün, 2013-cü ildə bu göstərici 3,9%, 2015-ci ildə isə 2,1% təşkil edib. Analoji dövrdə uşaqlar arasında bu göstərici 6%-dən 2,5%-ə enib.

Gürcüstan əhalisi arasında ümumi yoxsulluq səviyyəsi (gündə 2,5 dollar) 2013-cü ildə 24,6%, 2015-ci ildə isə 18,4% faiz təşkil edib, uşaqlar arasında bu göstərici 28,4%-dən 21,7%-dək düşüb.

Ekspertlər qiymətlərin artması, xəstəliklər və ailənin gəlirlərinin azalması kimi problemlərlə hər gün rastlaşdıqlarını bildiriblər. Səhiyyə xərcləri 31% artıb ki, bunun da əsas hissəsi dava-dərman alınmasına gedir.

Araşdırmada əhalinin varından artıq xərclədiyi də vurğulanıb.

Araşdırmaçılar su və sanitar normalar kimi problemlər də aşkarlayıblar. 2015-ci ildə əhalinin 5%-inin su resurslarına əl çatmayan yerlərdə, 24%-inin isə dəhşətli sanitar şəraitdə yaşamalı olduğu bildirilib.

YUNİSEF-in eksperti bildirib: "Digər uşaqlar kimi hər bir uşağın güclü və sağlam böyümək, təhsilli olmaq, müdafiə olunmaq, həyatda öz imkanları olmaq hüquqları var... Sosial bərabərsizliyin kökünü kəsmək, hər bir uşağın həyatını yaxşılaşdırmaq üçün Gürcüstanda səhiyyə və təhsilin müdafiəsinin daha güclü sisteminin hazırlanması vacibdir".

Araşdırma 2013-cü ilə nisbətən Gürcüstanda işsizliyin 2% azaldığını, lakin şəhərlərdə kəndlərə nisbətən işsizliyin dörd dəfə çox olduğunu da aşkarlayıb.

**Dünyanın 190 ölkəsində fəaliyyət göstərən YUNİSEF-in bu tədqiqatı qurumun 70 illik yubileyi çərçivəsində həyata keçirilib.**

Hazırladı: A. A. ƏLİYEVA

## GÜRCÜSTANDA 14-21 YAŞLILAR ÜÇÜN ƏLAHİDDƏ HƏBSXANA TİKİLƏCƏK

Gürcüstanda 14-21 yaşlı məhbusların yerləşdiriləcəyi ayrıca müəssisə tikmək planlaşdırılır. Bu barədə noyabrın 24-də cəzaçəkmə və probasiya üzrə nazir vəzifəsinə namizəd Kaxi Kaxiaşvili məlumat verib.

Kaxiaşvili parlamentin hüquq məsələləri, insan hüquqları və vətəndaş inteqrasiyası məsələləri, prosedur qaydaları və məsələləri, habelə müdafiə və təhlükəsizlik komitələrinin birgə iclasında çıxış edib.

Kaxişvili deyib: "Bizim gələcəklə bağlı böyük planlarımız var. Misilsiz bir layihə başlanır, 14-21 yaşlı məhbuslar üçün ayrıca müəssisə tikiləcək. Biz məhbusların 18 yaşa çatan kimi böyüklər üçün müəssisəyə yerləşdirməsinin düzgün olmadığını düşünürük".

14-21 yaşlı məhbuslar üçün ayrıca müəssisə Avropa İttifaqının tövsiyyəsi və köməyilə tikiləcək.

Kaxişvili qeyd edib: "Müəssisədə bu yaşda olan məhbuslar üçün ayrıca proqram olacaq ki, gələcəkdə cəzalarını çəkdikdən sonra biz bu adamları cəmiyyətə tam qovuşdurmağı nail ola bilək".

## GƏNCLƏR YUXUDAN HAMIDAN GEC OYANIRLAR

Tbilisidə maşınların çoxluğu ucbatından yaranan tıxaclar işə gecikməmək üçün insanları evdən tez çıxmağa vadar edir. Evdən tez çıxmaq üçünsə, erkən oyanmaq gərəkdir.

ACT şirkətinin həyata keçirdiyi tədqiqat nəticəsində bəlli olub ki, ölkə paytaxtının əhalisi iş günlərində orta hesabla saat 8-də oyanır. Lakin təhlil nəticəsində yaş qrupları arasında müxtəliflik də ortaya çıxıb. Yaşlı Tbilisi sakinləri yuxudan daha tez oyanırlar.

Araşdırma nəticəsində o da aydınlaşdırılıb ki, Tbilisidə işə orta hesabla saat 9:50-də başlayırlar. İş yerinə çatmaq üçün təxminən 30 dəqiqə lazım gəlir. Minik maşınlarında iş yerinə çatmaq 25 dəqiqəyə başa gəlir, ictimai nəqliyyatdan istifadə edənlərə isə iş yerlərinə çatmaq üçün bundan əlavə 6 dəqiqə də lazımdır, yəni onlar iş yerlərinə təxminən 31 dəqiqə ərzində çatırlar.

Sorğu 2016-cı ilin oktyabrında təsadüfi seçim yolu ilə yetkinlik yaşına çatmış 400 Tbilisi sakini arasında aparılıb. Məlumatların statistik xətası 4,9%-dən artıq deyil.

## YETİMDOYDURAN
### (al dente)

İBRAHİMXƏLİL



**Süsən-Sünbül tərəflərdə belə südəcər söz-söhbət də gəzir ki, bəs deməzsənmi, Yəməni – dəniz quldurlarının arada-sırada ulduzlara görə hərəkət etdiyi Ədən körfəzi daxil – "Süheyli-Yəmən" adlı ulduz yıxıbmış. Burasını da deyirlər ki, həmin ulduz dünyanın digər mədhnamə məmləkətlərinə nisbətən Yəmən üzərində daha parlaq görünür və elə bu siyahtel səbəbdən də "Yəmən Süheyli" adlanır. Açığını söyləyirəm: Süsən-Sünbül tərəflərdə hələ unudulmaz Mirzə Fətəlinin "Aldanmış kəvakib" povestindən də çox-çox əvvəllər ulduzlara münasibət birmənalı olmayıb. Hətta bəzi rəvayətsevərlər "Tarixi-Abbasi"dən götürülən bu canfəza cümləni əzbərləmək dərəcəsinə qədər gediblər: "...bu dövrdə bir ulduz peyda oldu ki, bu da dövrün padşahlarının dəyişdirilməsi ilə nəticələndi".**

Süsən-Sünbüllülər dövrün padşahlarının (dinc yolla) dəyişdirilməsi üçün köhnə ulduz gözləməkdə olsunlar, sizə kimdən xəbər verim – adının "Xəlil" hissəsini nəvəsinə verən adaşım Yetim İbrahimdən. Yetim İbrahim hazırda Yetim Gürcü haqqında "yeddiqardaş" (ulduz adından götürülüb) yazı hazırlayır və üzü sübh çağına özünün iki misilləmə misrasının da pıçıldamağından qalmır:

Axşam-axşam ulduz altda duza batırıb,
yetim hərdən ümüdini çörəksiz yeyir.

Yetim İbrahimə görə, yetim – təkcə atası, yaxud anası və ya hər ikisi ölmüş adam deyil, həm də orta adambaşı gəlir baxımından, yoxsulluq həddindən aşağı yaşayan yazıqlar – zavallı və miskinlərdir. Bu yerdə Dədə Mirzə Tüpdağıdan Yetim İbrahimi topçomaq atəşlərə yaxaraq arada-sırada mat-məthub munisipalitet tərəflərə çeynəm-çeynəm çuğullayır ki, balam, yaxşı, bu Yetim mirzə gah Yəməndən, gah da Yetim Gürcüdən yazdığı halda, yetimlərin rifah halının yaxşılaşdırılmasından, İnsan İnkişafı Əmsalından, layiqli həyat sürmək hüququndan, yoxsulluqla (yetimliklə) mübarizə tədbirlərindən bu qədər söz açmaqla nələrə və kimlərə işarə vurur axı?!

Dədə Mirzə Tüpdağıdanın nə vecinə? "Alter eqo"su ha yoxdur hərdən-birdən əzab çəkə. Dünyada yüz iyirmi milyon yetim var – nəyinə lazım, yetimə "can-can" deyən çox olar, çörək verən az – nəyinə lazım. Təki onun menyüsü, yetimdoyduranı (hamınınkından iri, yekə qabı), qaç-qov qaşığı yerində olsun; axı o, həm də qazan yetimidir!..

P.S.

Yaxşı deyib(lər): "Hər bir insan heç bir başqa tarixə bənzəməyən bir tarixdir". Doğrudan da...

...Nahar vaxtıdır. Yetim İbrahimgilə gəlmişəm. O, "Yetim-segah"ı dinləyir. Kövrəlirəm. Görünür, Yetim İbrahimin yetimdoyduranı da "Yetim-segah" imiş...

Adaşımın bu həzin-füzun halını görəntək, "Yetim İbrahimin nağılı"nın bu yeri yadıma düşür: "Qızın burnundan nimçəyə iki damla qan düşdü. Qan damlaları hərləndi, fırlandı, şişdi, böyüdü, hərəsi bir dəstə səməngülünə çevrildi". Xatirinizdədirsə, padşah Yetim İbrahimə ağ divin bağından səməngülü gətirməyi əmr etmişdi; çünki onun quşu səməngülünü görməsə, rəngbərəng yumurtalar yumurtlamırmış... Müxtəsəri, mənim anlamımda, yetim üçün yağlı ət, yağlı düyü, zər-ziba yoxluğu ola bilər, amma onun "Yetim-segah"ı da, səməngülü də, sabahgülü də həmişə var!

**...Dünən idilliyalarla dolu İtaliyaya keçmək istərkən Aralıq dənizində qərq olmuş Yəmən yetimini göstərirdilər. Ata-ana yetimi olmaqdan da vətən yetimi olmaq betər imiş...**

## GENDER BƏRABƏRSİZLİYİ NƏDİR? BUNUN QARŞISINI NECƏ ALMAQ OLAR?

**Bu yaxınlarda İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin dəstəyi və təşəbbüsü ilə gender bərabərsizliyi mövzusunda tamaşa hazırlayacam. Öncəliklə onu qeyd edim ki, tamaşanın hal-hazırda yazmağa davam etdiyim ssenarisinin mövzusunu seçmək mənim üçün olduqca çətin oldu. Çünki gender bərabərsizliyi mövzusu çox dərin bir mövzudur. Hər tərəfə çəkmək olar. Buna görə də bir yox, birdən çox mövzu yazaraq aralarında ən anlamlı olanı üçün ssenari yazmağa qərar verdim. Əlbəttə, bu ssenarini də yazarkən müəyyən araşdırmalar apardım. Məsələn, Hindistanda hər gün təqribən iki min qız uşağı abort olunaraq dünyaya gəlmədən dünya ilə vidalaşır. Bunu mən yox, Hindistanın Qadın və Uşaqların İnkişafı naziri Maneka Qandi deyir. Üstəlik ölkədə uşağın cinsiyyətini doğumdan öncə öyrənmək qadağandır. Ancaq bu da çarə deyil. Nazir qeyd edir ki, bəzi hallarda qız uşaqları doğulduqdan sonra yastıqla boğularaq öldürülür. Hindistanda 2011-ci ildə aparılan araşdırmaya görə, ölkədə son üç ildə abort olunan qız uşaqlarının sayı tam 12 milyondur. Bu say, dünyadakı bir çox ölkələrin ümumi əhalisindən daha çoxdur. İndi deyə bilərsiniz ki, bizə çoxmu lazımdır Hindistan? Hindistanı ona görə yazdım ki, statistikaya görə dünyada bu baxımdan liderlik edən ölkələrdən biridir.**

İndi qayıdaq özümüzə. Bəri başdan deyim ki, Qafqazda ən çox abort halları Azərbaycanda baş verir. Və son illərdə Azərbaycanda oğlanların doğum sayı qızlara nisbətən daha çox artıb. Bu da onu göstərir ki, abort olunan uşaqlar əsasən qız uşaqları olur. Əslində buna çox da təəccüblənməmək lazımdır. Bir halda ki, bir millətin toylarının əksəriyyətində hələ də yeddi oğul, bircə dənə də qız arzu edirlər, belə olan halda başqa cür ola da bilməz. Ümumiyyətlə, istər Azərbaycan olsun, istərsə də Gürcüstanda yaşayan azərbaycanlılar, bizim əhalinin böyük əksəriyyəti oğlan uşağına meylli olur. Məsələn, beş qız olsun, altıncı, yeddinci uşaq oğlan olana kimi əl çəkməyəcək insanlar var. Hətta oğlan uşağı dünyaya gətirə bilmir deyə həyat yoldaşını boşayanlar var. Mənim bir tanışımın ikinci övladı qız oldu. İlki oğlan idi deyə, gözləyirdilər ki, ikinci də oğlan olsun. Anası əsəbiləşərək oğluna demişdi ki, "tfu, sənin qeyrətinə, niyə qız oldu?". Yəni, təəssüf ki, bizdə qız uşağını qeyrətsizlik kimi görənlər var. Bu əslində gələcəyimizə vurulan bir zərbədir. Hamı oğlan dünyaya gətirsə, sabah ya biri gün həmin oğlanlar böyüyüb ailə qura bilməyəcək. Kiminlə evlənəcəklər? İndi deyəcəksiniz ki, elə evlənmək istəyəndə yadınıza düşür qızlar. Yox, sadəcə bir nümunə gətirdim. Yəni, qız övladını gözü götürməyən analar, nənələr bir gün vaxt gələcək qapı-qapı düşüb oğullarına, nəvələrinə qız gəzəcəklər. Onu da qeyd edim ki, qızı sadəcə dünyaya gətirmək də əsas deyildir. Sonuna qədər dəstək olmaq da lazımdır. Bizim hələ də bəzi regionlarımızda qız uşaqları 8-ci, 9-cu sinifdən məktəbdən çıxarılır və gözləyirlər ki, bir namizəd çıxsın və ərə versinlər. Yaxşı ki, ölkəmizdə artıq bununla bağlı bir qanun qəbul edilir. Artıq 18 yaşından aşağı olub evlənənlər məsuliyyətə cəlb olunacaqlar.



Yazımın əvvəlində qeyd etdiyim abort mövzusunda bir-iki məqama daha toxunmaq istəyirəm. Gürcüstanda 1990-2010-cu illərdə, yəni həmin dövrə qədər olan son 20 ildə tam 25 min gələcəyin anası abort olunub. Onlar bəlkə də ölkə üçün, millət üçün, hətta dünya üçün çox dəyərli şəxslər olacaqdılar. Elə olmasalar belə, onların da yaşamağa haqları var idi. Unutmayaq ki, abort hüquqi olaraq olmasa da, vicdani olaraq cinayət sayılır.

Gender bərabərsizliyi mövzusunun çox geniş olduğunu vurğulamışdım. Bu mövzu, əlbəttə, sadəcə abort, ya da erkən evliliklə sərhədli deyil. Məsələn, iş sahəsində də açıq-aşkar gender bərabərsizliyi olduğunu görə bilərik. Bu gün dünyada neçə qadın prezident, baş nazir var? Bu gün dünya markası olmuş önəmli şirkətlərin böyük əksəriyyətini kişilər idarə edir. Ancaq gəlin elə hər tərəfdən də yazıq kişiləri vurmayaq. Bu gün getdiyi əksər iş görüşməsində bizə kişi yox, qadın işçi lazımdı cavabı ilə məyus olan kişilərin sayı az deyil. Ölkəmizdə çox böyük vəzifələrdə olmasa da, əksər iş yerlərində qadınların işə qəbul olunma şansı kişilərdən çox üstündür. Yəni, gender bərabərsizliyi elə bir problemdir ki, bunu sadəcə qadınlara, ya da kişilərə şamil etmək düzgün deyil. Və, nə olarsa olsun, insanları cinsiyyətinə görə yox, insani keyfiyyətlərinə görə dəyərləndirmək lazımdır. Ancaq belə olan halda gender bərabərsizliyi ortadan qalxa bilər. Yoxsa illər keçəcək, insanlar dəyişəcək, amma təfəkkür dəyişmədikdən sonra hər şey olduğu kimi qalacaq.

Anar RAFİQOĞLU

## GÜRCÜSTAN HÖKUMƏTİ DOLLARLA KREDİTİ OLANLARIN KÖMƏYİNƏ GƏLİR

Gürcüstanda dollarla krediti olanlar bu krediti lariyə çevirə bilərlər. Həm də aşağı məzənnə ilə.

Gürcüstan hökuməti Milli Bankla birlikdə "lariləşmə planı" hazırlayıb.

Baş nazir Georgi Kvirikaşvili bildirib: "2015-ci il yanvarın 1-ə kimi dollarla kredit götürənlər həmin krediti dollardan lariyə çevirə bilərlər. Krediti lariyə çevirəndə cari məzənnədən 0,2 aşağı məzənnə götürüləcək. Məsələn, 1 dollar 2,50 laridirsə, onda krediti 1 dollar – 2,30 lari məzənnəsi ilə çevirəcəklər."

Baş nazir deyib ki, bu, birdəfəlik sosial aksiyadır, köməkdir.



Dollar kreditini lariyə çevirməyə bir şərt qoyulur. Dollarla krediti götürən fiziki şəxsdirsə və krediti götürərkən əmlakını girov qoyubsa, onda o, dollarla krediti lariyə çevirə bilər.

## GÜRCÜSTANDA CƏMİ BİR RƏSMİ MİLYARDER YAŞAYIR

Beynəlxalq Valyuta Fondunun materiallarına istinad edən "Forbs" jurnalı dünyada yaşayan milyarderlərin sayı və öz ölkələrinin ÜDM-a münasibətdə onların əmlakının məcmu dəyəri haqqında araşdırma aparıb.

Araşdırmanın ikinci hissəsinə əsasən, ölkədə cəmi bir milyarder – Bidzina İvanişvilinin olmasına baxmayaraq, Gürcüstan dünyada birinci yeri tutub. Onun əmlakı ölkənin ÜDM-nin 34,90%-ini təşkil edir.

77 milyarderi olan Rusiya bu göstəriciyə görə ikinci olub. Rusiya milyarderlərinin əmlakı ölkənin ÜDM-nin 22,87%-ini təşkil edir.

ABŞ-da 540 milyarder yaşayır, onların əmlakı ÜDM-in 13,35%-ini təşkil edir.

5 milyarderlə və onların ÜDM-dəki 8%-lik payı ilə Ukrayna dördüncü pilləni tutur. Beşinci yeri 50 milyarder və onların ÜDM-dakı 5,5%-lik payı ilə Böyük Britaniya, sonrakı pilləni 251 milyarderlə və ÜDM-dəki 5,2%-lik payı ilə Çin tutur.

2015-ci ilin məlumatlarına görə, dünyada cəmi 2400 milyarder yaşayır və onların məcmu sərvəti 7,7 trilyon dollar təşkil edir.

Avropanın 806 milyarderi var və onların ümumi sərvətləri 2,3 trilyon dollardır.

Şimali Amerikada cəmi 628 milyarder olsa da, onların sərvəti avropalı həmkarlarının sərvətindən çox olub, 2,5 trilyon təşkil edir.

Asiyada milyarderlərin sayı 2015-ci ildə 15,2% artaraq 645 nəfər olub. Onlardan 166 nəfəri Yaxın Şərqin neft ölkələrində yaşayırlar, ümumilikdə 450 milyard dollarlıq əmlaka malikdirlər.

Afrikanın cəmi 41 milyarderi var, onların ümumi sərvəti 98 milyard dollar təşkil edir.

Dünya milyarderlərinin cəmi 294 nəfərini qadınlar təşkil edir, onların ümumi sərvəti 867 milyard dollardır.

Milyarderlərin 70,5%-nin bakalavr, yalnız 22%-nin magistr təhsili var. Milyardelərin 9,5%-i elmlər doktoru alimlik dərəcəsinə sahibdirlər.

## "TRUMP TOWER"İN TİKİNTİSİ YENİDƏN BAŞLAYACAQ

Batumidə "Trump Tower"in tikintisi yenidən başlayacaq. Bu barədə "Silk Road Group" şirkətinin nümayəndəsi Georgi Mapp məlumat verib.

Georgi Mapp bəyan edib: "Əmlak bazarının yaxşılaşması fonunda və son illərdə Gürcüstanda yaradılmış əlverişli investisiya mühitindən çıxış etsək, bizim nikbin olmamız üçün əsas var. Buna görə iddialı layihəmizi yaxın zamanlarda davam etdirməyi planlaşdırırıq. Məhz bu əhvali-ruhiyyə Batumidə "Trump Tower"in tikintisini həyata keçirməmizə imkan verir".

Gürcüstanda "Trump Tower"in tikilməsi ideyası 2010-cu ildə "Silk Road Group" şirkətinin Nyu-York nümayəndəliyi ilə Tramp təşkilatlarının görüşündən sonra ortaya çıxmışdı. "Trump Tower"in tikinti lisenziyası 2011-ci ilin martında Nyu-York-da təntənəli lisenziya müqaviləsinin imzalanmasından sonra "Silk Road



Group" şirkətinə verilmişdi. Batumidə "Trump Tower"in tikintisini "Batumi-Rivera" adlanan ərazidə həyata keçirmək qərara alınsa da, layihənin gerçəkləşdirilməsi indiyədək dayandırılmışdı.

Xatırladaq ki, bu tikintinin həyata keçirilməsi məqsədilə 2010-cu ildə Gürcüstana səfər etmiş Donald Trampı Gürcüstanın o zamankı prezidenti Mixeil Saakaşvili şəxsən qəbul etmişdi. O, "Trump Tower"in tikintisinin başlanması mərasimində də şəxsən iştirak etmişdi.

## GÜRCÜSTANDA DNK MƏLUMATLARI BANKI YARATMAĞI DÜŞÜNÜRLƏR

Gürcüstan DİN cinayətkarlıqla effektiv mübarizəyə imkan yaradan DNK məlumatları bankı yaratmaq haqqında təşəbbüslə parlamentə müraciət etmək niyyətindədir.

Gürcüstan Daxili İşlər Naziri vəzifəsinə namizəd Georgi Mqebrişvili (artıq nazirdir - red.) parlamentdə DNK məlumatları bankının yaradılmasına dair təşəbbüsünü səsləndirib.

Noyabrın 24-də parlamentin dörd komitəsinin birləşmiş iclasında çıxış edən Mqebrişvili deyib: "mənim təşəbbüslərimdən biri DNK bankının yaradılması ilə bağlıdır. Bu olduqca bahalı və mürəkkəb layihədir. Layihələşdirmə və hüquqi tənzimləmə mərhələsi artıq başa çatıb. Gələn il bu sahədə qanunvericilik təşəbbüsü ilə çıxış edəcəyik, parlamentin bəyənəcəyi təqdirdə, artıq həyata keçirmə mərhələsinə keçəcəyik".

O, qeyd edib ki, cinayətkarlıqla mübarizənin davam etdirilməsi üçün yüksək texnologiyalar gərəkdir.

Mqebrişvili deyib: "Biz 2015-ci ildən bu günədək böyük hissəsi tranzit üçün nəzərdə tutulan qeyri-qanuni dövriyyədən 37 kiloqram kokain və 181 kiloqram heroin, habelə 15 kiloqram psixotrop "Preqabalin" maddəsi və digər narkotiklər çıxarmışıq. Elə bu dövr ərzində 1 482 ədəd qanunsuz odlu silah müsadirə edilib ki, bu da daha ağır cinayətlərin qabağının alınması deməkdir".

O, Gürcüstan DİN-nin mütəşəkkil cinayətkarlığa qarşı yeni strategiya üzərində işlədiyini də vurğulayıb.

## TƏLXƏYİN DƏRDİ

**Çox dəyərli oxucum, bu sayımızda səninlə səni də, məni də yaxından maraqlandıracaq bir mövzudan bəhs etmək istəyirəm. Əksəriyyətimiz kənd yerlərində yaşayırıq. Kobud dildə desək bizlər şəhərli yox, kəndliyik. Ancaq, nə xoş halımıza ki, yaşadığımız məkanın yanlız coğrafi adı kənddir. Məzmun baxımından müzakirə edəcək olsaq, mütləq qeyd etməliyik ki, yaranmış şəraitlər, texnologiya, yeniliklər və 21-ci əsrin müxtəlif meyvələri istəsək də kəndli olmağa qoymur. Bu gün hər cür cah-cəlalla bəzədilən evlərimizə, daimi işığımıza, qazımıza və internetimizə hətta bəzi şəhərlilər həsəd də apara bilərlər. Heç şübhəsiz ki, mən bu sadaladığım imkanlardan məhrum olan kəndlərimizin də varlığını unutmamışam. İstisnalar hər zaman ömrümüzün ayrılmaz parçasıdır. Amma, əksəriyyətin vəziyyətini nəzərə alaraq fikir söyləməmizin də yanlış olmayacağı qənaətindəyəm. Dəyərli oxucum, biz coğrafi kəndlilərin əli bu gün hər yerə uzanır. Sözün əsl mənasında hər yerə. Sevindirici haldır ki, ən yaralı yerimiz hesab edilən təhsil sahəsində də son illərdə dirçəliş görülməkdədir. Ümidverici haldır ki, insanlar təhsil almağın, həyata hazırlanmaq üçün ən gözəl və güclü yolun təhsildən keçdiyinin fərqinə varmağa başlayırlar. Fəxr edilməli haldır ki, bu gün gənclərimiz ölkənin müxtəlif ali təhsil müəssisələrində uğurla təmsil olunur və bir-birindən fərqli sahələrdə təhsil alırlar. Universitetlərdə fərqlənən, bunu nəticələrində, işlərində, tutduqları məqamlarda nümayiş etdirən gənclərin sayının hər keçən gün artması da, başımızı dik tuta bilməmiz, sevinməmiz üçün əsas verən amillərdən biridir. Uzun sözün qısası, zamanla kənd içində şəhər mühitinə keçid etməmiz danılmaz faktdır. Gürcü cəmiyyətinə inteqrasiya olunma isə bu mövzunun parçası olmaqla yanaşı, həm də ayrıca mövzu bəhsidir.**

Bütün sevindirici halları az-çox sadaladıq, ancaq narahatlıq verən və yazımızın səbəbkarı olan məsələni dilə gətirmədən borcumuzdan çıxmış sayılmarıq. Bizim ellərdə insanlar sözün əsl mənasında uşaqlarına maya qoyur, inkişaf etməsini istəyirlər. Belə ailələrin sayının kifayət qədər çox olmasını tam məsuliyyətlə söyləmək olar. Diqqətimi oğurlayan məqam kənd uşaqlarının mədəniyyət, incəsənət, teatr, əyləncə həyatından xəbərsiz olmasıdır. Yazıqlar olsun ki, məktəbi nəzərə almasaq, ətrafımızdakı uşaqların, gənclərin yeganə əyləncə yeri ictimai həyatları toylardan ibarətdir. Minlərlə bəhanələr və biganəliklər uşaqları bu cür fəaliyyətlərdən kənarlaşdırır. Bizim uşaqlar teatr, sərgi, konsert kimi toplantıları, nümayişləri yüz ildə bir görürlər. Bu günkü zəmanə üçün məsafələr o qədər uzun və utandırıcıdır ki, yüz ilə bərabər də hesab etmək olar. Dəyərli oxucum, lütfən bir düşün, övladını, nəvəni və ya başqa yaxınlarını nə zaman belə mərasimlərdən birinə aparıbsan?! Bəs nə zaman böyük toya, kiçik toya ?!. – bəlkə dünən, bəlkə də elə bu qəzeti oxuduğun gün...

Təxmin edə bilirəm, mənim nə hayımdır, bu nədən danışır deyirsən... Ancaq, mən elə də böyük şeylər istəmirəm. Əsla. Tiflisi, Rustavini su yoluna döndərən bizlər üçün iki ayda bircə dəfə də olsa uşaqlarımızı teatra, kinoya, sirkə aparmaq heç bir yöndən müşkül məsələ olmamalıdır. Filankəsin oğlunun toyuna toy sahibini də, özünüzü də borca düşürərək yazdıracağınız 50-100 larini (dollar da yazmaq olardı) övladlarınıza hədiyyə etməniz yetər, hətta artıqlıq da edər... Bir toydan da kəm qalaq, dünyanın sonu olmayacaq. Uşaqlarımızın mənəviyyatını yalnız televizor və internet doldurub, zənginləşdirə bilməz... Bu mümkün deyil. Təhsil də yetərli deyil... Bunları yazmama səbəb olan sadə bir misalı nəzəri-diqqətinizə ərz etməyi özümə borc hesab edirəm. Ötən günlərin birində, məktəblərimizin birinə Rustavi şəhərindən sirk ustaları gələrək, uşaqlara şou göstərdilər. Məktəbin akt zalı uşaqlarla dolub-daşırdı. Buraya qədər hər şey yaxşı idi. Amma və lakin, içərilərində mənim yaxınlarım da daxil olmaqla tamaşaçı uşaqlar, yekdilliklə görməmişliklərini nümayiş etdirdilər.



Onları əsla qınamıram, qınamaq olmaz. Onlar həqiqətən görməyiblər. İnanın inandıqlarınıza ki, beş qəpik çörək pulu qazanmaq üçün cildən-cildə girən təlxəyin yanında ət tökülb, üz qızartdıq. Təlxək utanmasa üzünü cırardı. Çünki, uşaqlarımız onun səhnəsini və çıxışını burnundan tökdülər. Uşaqları zəbt edə bilənə isə eşq olsun... Dinləmə, eşitmə, izləmə mədəniyyəti əfsus ki, bizdə sıfırın sərhəddindədir. Bu qəbildən olan böyüklərimizin sayı da çoxdur desəm, güman edirəm soğan yeyənlərdən başqa heç kimin halı xarablaşmayacaq...

Onlar adı üzərində uşaqdırlar və bu kimi mərasimlərdə nə etməli olduqlarını bilməmələri də kifayət qədər normal hadisədir. Çünki belə təcrübələri yoxdur. Çünki, axırıncı dəfə "yüz il öncə" belə bir mərasimdə iştirak ediblər. Halbuki, o uşaqlar dünya görməlidirlər. Bu elə də çətin deyil, bu o qədər də zülm iş deyil. Bu kimi maraqları olan, teatra, musiqiyə, rəsmə və bu kimi yönlərə yönələn uşaqlar pis vərdişlərdən uzaq olurlar. Onların dünyagörüşü daha geniş olur və onlar təlxəyə bir tikə çörək üçün düşdüyü vəziyyətə lənət oxutdurmurlar... Kənd həyatımız, ələlxsüs da, bu günkü şərtlərdə bizim üçün mədəniyyətdən uzaq düşməyə səbəb deyil. Həyat səhnəsini tərk edərkən başımızı yalnız və yalnız tamaşaçı alqışı üçün önə əymiş olmalıyıq...

P.s. Birdən düşünürəm, təlxəyin gözlərindəki yaş, onun "biz" adlı dərdinin təcəssümüdür.

Afayət AFİQ

## QARŞISINA ÇƏPƏR ÇƏKDİYİMİZ GƏNCLİK

***Mövzumun fikirlərimi əhatə edib-etməyəcəyini nəzərə alaraq, sizə real həyatda məni narahat edən mövzulardan biri haqqında danışmaq istəyirəm. Əminəm ki, oxucuların əsas hissəsi də mənimlə eyni mövqedə olacaqdır.***

Bəli, bilirik ki, hər bir övlad ailəsi üçün, eləcə də cəmiyyət üçün müəyyən əhəmiyyət daşıyır. Gənc nəsil böyüklərin gələcəyə dair ümidlərini, gözləntilərini doğrultmaq məsuliyyəti daşıyır. Hər bir cəmiyyətin məqsədi öz övladlarını düzgün yetişdirmək, sonda düzgün nəticə əldə etməkdir. Nə xoşbəxtdir o cəmiyyət ki, övladı sorub-sorğulamadan bütün göstərişlərə əməl edir.

Əgər düşünürsünüzsə ki, bu axınla getsəm cəmiyyətin yetkin üzvlərinin övladlarına münasibətlərini tənqid edəcəm, deməli, siz artıq söhbətin haraya gedəcəyini bilirsiniz.

Əvvələ, onu deyim ki, məsələnin ünvan arealı xeyli böyük olsa da, məsələyə daha ehtiyatli yanaşanların sayı da az deyil.

Belə ki, cəmiyyət olaraq bizim ən ali məqsədimiz inkişafdır. Elədir, ya yox?

Mövzunu daha da aydınlaşdırmaq istəyirəm. Cəmiyyət öz uşaqlarının söz azadlığını əlindən almaqla, fikir azadlığını da əlindən alır. Ailədə "sən uşaqsan, qarışma", sinifdə "siz bilmirsiniz, özüm danışım" deyən yetkin nəsil özü də bilmədən xeyir vermək istədiyi gələcəyin önünə sərhədlər qoyur. Əgər bir azyaşlıya ailədə öz fikrini bildirmək, yaşıdları arasında öz mövqeyini göstərmək imkanı tanımırıqsa, fikri və nitqi qüsurlu gənclikdə günah axtarmaq əvəzinə öz səhvlərimizi gözdən keçirməliyik. Bunun sonrakı nəticələrindən biri də, gələcəkdə həmin uşağın fikirlərini səsli ifadə etmək probleminin yaranmasıdır. Əlbəttə ki, adətən daha yaşlı təbəqənin üzvlərinin həyat təcrübələri əsasında danışdıqları da az məna daşımır. Sınanmış, yoxlanmış yollardan keçmək, yeni-yeni cığırla getməkdən daha az təhlükəli olar. Amma bəzi mövzularda təhriklər daha çox olur. Bir yeniyetmənin öz gələcək peşəsini istəklərinin əksinə seçməsi, düşünürəm ibtidai insan təfəkkürünə daha yaxındır. Doğru olub-olmamasından asılı olmayaraq hər kəs kimi, azyaşlıların da öz mövqeləri var. Doğru və yalnışları göstərmək əlbəttə ki, önəmlidir, amma təbii ki, məcbur etmədən.

Bu mövzuda daha önəmli başlıqlardan biri də ətrafındakı münaqişələrdən əziyyət çəkən azyaşlılardır. Təəssüf ki, ictiami münaqişələr, ailədaxili problemlər onlarda yalnız psixoloji problemlərə yol açmır, həm də beyin inkişafını ləngidir. Bunu nəzərə alaraq yalnız münaqışələrin deyil, o cümlədən mübarizələrin də azyaşlıların həyatında mühüm təsirlərinin olduğunu düşünürəm. Cəmiyyət gələcək nəslin fikirlərinə, istəklərinə qulağını tutmaqla, öz inkişafını ləngidir.

İndi isə, cəmiyyətimizin uşaqlar üzərində mənfi təsirinə dair misal göstərmək istəyirəm. Təhsildən yayınma, erkən evlilik insanlar arasında şablon mövzulara çevrilsə də, onların həlli prosesində fəal iştirakçı deyilik, fəal izləyicilərik.

Niyəmi inkişaf etmirik?

Yaxşı mahnı oxumaq qabiliyyəti olan uşağa "başımıza müğənnimi olacaq" deyirik, gənclərin fikirlərini dinləmədən, onlar üçün yazdığımız ssenari üzrə oynamalarını tələb edirik, qulağımızı tutub, öz doğrularımıza hər kəsi inandırmağa çalışırıq... Sonra da deyirik: inkişaf etmirik...

***Sınanmış təcrübələr o dövr üçün keçərli idi. Deyim ki, əvvəlki sistemin qaydaları artıq bu dövrdə keçmir.***

Anaxanım Vüqar

## GÜRCÜSTAN VƏ AZƏRBAYCAN 2017-Cİ İLDƏ VOLEYBOL ÜZRƏ QADINLAR ARASINDA AÇ-NIN FİNAL MƏRHƏLƏSİNƏ EV SAHİBLİYİ EDƏCƏK

Gürcüstan 2017-ci ilin sentyabrında Azərbaycanla birlikdə voleybol üzrə qadınlar arasında Avropa çempionatının final mərhələsinə ev sahibliyi edəcək.

Gürcüstan Gənclər və İdman Nazirliyindən bildirilib ki, Avropa çempionatının keçirilməsi ilə əlaqədar noyabrın 22-də Avropa və Gürcüstan Voleybol Federasiyaları arasında rəsmi müqavilə imzalanıb.

Müqaviləni Tbilisidə rəsmi səfərdə olan Avropa Voleybol Konfederasiyasının prezidenti Aleksandr Boriçiç və Gürcüstan Voleybol Federasiyasının prezidenti İrakli Çaçava imzalayıblar.

Müqavilənin imzalanmasından sonra tərəflər Bakıya yola düşmüşlər. Noyabrın 23-də Bakıda qonaqlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edilmişlər.

Xatırladaq ki, Bakıda Azərbaycan Voleybol Federasiyasının prezidenti Cavid Qurbanov, Avropa Voleybol Konfederasiyasının prezidenti Aleksandar Boriçiç və gürcüstanlı nazir müavini Şalva Qoqoladze arasında Avropa çempionatının təşkilinə dair müqavilə də imzalanıb.

Avropa çempionatında 16 komanda iştirak edəcək. Gürcüstanın qadın yığma komandasının oynayacağı B qrupunun matçları Tbilisidə keçiriləcək. Görüşlər 20-23 sentyabr 2017-ci il tarixində baş tutacaq.

Qeyd edək ki, Avropa çempionatının oyunlarını dünyanın 160 ölkəsi translyasiya edəcək.

## BİLDİRİŞ

**Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı hər il olduğu kimi bu il də**

**GÜRCÜ DİLİ,**
**İNGİLİS DİLİ,**
**UNİVERSİTETƏ HAZIRLIQ (məntiq və riyaziyyat)**

**kurslarına qəbul elan edir. Dərslər dekabr ayının 2-dən etibarən başlanacaq.**

**Əlaqə telefonları:**
**568 69 26 60**
**599 54 12 92**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

30 noyabr 2016-cı il
№022 (36)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "ეხი თილი" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## İVANİŞVİLİ VİLLEM DE KUNİNQİN TABLOSUNU 61 MİLYON AVROYA SATDI

Gürcü milyarderi, ölkənin sabiq Baş Naziri Bidzina İvanişvili holland rəssamı Villem de Kuninqin tablosunu 61 milyon avroya satıb. Tablao Nyu-Yorkda hərrəcda satılıb.

Hollandiyanın volkskrant.nl nəşrinin məlumatına görə, tablo 37 milyon dollarlıq başlanğıc dəyərindən təxminən iki dəfə baha satılıb.

Tablonun alıcısı bəlli deyil. O, tablonu telefon vasitəsilə alıb.

Ömrunun böyük hissəsini ABŞ-da yaşayıb-yaradan bu mücərrəd ekspressionistin əsəri ilk dəfədir ki, belə rekord qiymətə satılıb. Kuninqin tablosunun bundan əvvəlki satışı 30 milyon avro təşkil etmişdi. Onun



tablolarından birinin satışı ötən il 279 milyon dollara gerçəkləşdirilsə də, bu satış hərrac vasitəsilə deyil, xüsusi şəkildə baş vermişdi.

## TBİLİSİDƏ BİRİNCİ BEYNƏLXALQ MÜƏLLİF GƏLİNCİKLƏRİ FESTİVALI KEÇİRİLƏCƏK



Gürcüstan paytaxtında Birinci Beynəlxalq müəllif gəlincikləri festivalı Art Doll Tbilisi 2016 keçiriləcək. Festivalda Rusiya, Avropa ölkələri və Cənubi Qafqaz kukla ustalarının iştirakı gözlənilir.

Dekabrın 3-dən 5-dək Zurab Seretelinin Müasir İncəsənət Muzeyində keçiriləcək festivalda 50 gəlincik nümayiş etdiriləcək.

Festival iştirakçıları arasında Rusiyadan Viktor Qriqoriyev və Olqa Yequpets, Azərbaycandan Pərviz Hüseynov və İrina Qundorina, İtaliyadan Katarina Veştak və Laura Skatolini, Ukraynadan Anna Dan, Petr Pinçuk və Oksana Voropay, Çexiyadan Veronika Sido, Estoniyadan Svetlana Pçelnikova və Tarvi Pinki kimi ustalar da olacaq.

Bundan başqa festivalda 20-dən çox gürcüstanlı gəlincik ustasının əsərləri də sərgilənəcək.

Festivalda Batumidəki "Əli və Nino" abidəsinin müəllifi Tamar Kvesitadzenin gəlinciklərinə də tamaşa etmək mümkün olacaq.

Festivalın təşkilatçısı "GeoDoll" Gürcüstan gəlinciklər birliyidir. Layihə Gürcüstanın Mədəniyyət Nazirliyi və Tbilisi meriyasının Mədəni tədbirlər mərkəzinin maliyyə yardımı ilə gerçəkləşdirilir.

## TİBB ELMİNİ ALT-ÜST EDƏN KƏŞF

Amerika alimləri: "2030-cu ildə xəstəxanalara tələbat qalmayacaq və onlar sıradan çıxacaq"

Amerikalı alimlər əmindirlər ki, 2030-cu ildə insanların xəstəxanalara ehtiyacı qalmayacaq. Çünki bütün dünyada personallaşdırılmış tibb fəal surətdə inkişaf edəcək.

Onların fikrincə, müalicədə nanotexnologiyadan fəal şəkildə istifadə ediləcək. Mütəxəssislərin qənaətincə, yaxın onillik ərzində insanlar zərurət olduqda ev şəraitində müalicə olunacaqlar. Xəstəxana şəraitində müalicəyə nadir hallarda ehtiyac yaranacaq.

Alimlər əmindirlər ki, yaxın illərdə bəşəriyyət əksər xəstəliklərə qalib gələcək. Həmçinin hazırda tibb elmi xəstəliklərlə bağlı erkən xəbərdarlıqların verilməsi istiqamətində sürətlə inkişaf edir. "Yaxın zamanlarda bədbəxt hadisələr sıfıra enəcək. Regenerativ tibb o səviyyəyə çatacaq ki, insanların əksəriyyətini xəstəliklərdən xilas etmək və ömürlərini uzatmaq mümkün olacaq. Həkimlər xəstənin vəziyyəti ilə bağlı bütün informasiyaları smartfonların köməyi ilə əldə edəbiləcəklər", — deyə mütəxəssislər bildiriblər. Onlar əmindirlər ki, zamanla insan orqanizminin vəziyyətini saniyələr ərzində oxuyub ötürmək qabiliyyətinə malik şəffaf skaynerlər yaradılacaq. Həkimlər uzaq məsafədən smartfonların köməyi ilə xəstənin orqanizmdə baş verən prosesləri izləmək imkanına malik olacaqlar. "Bu, texnologiyanın insanlara yaradacağı imkanlardır. Daha bir



neçə onillik sonra isə, insanlar həkimin köməyi olmadan da öz xəstəlikləri barədə, texnikanın köməyi ilə hər şeyi öyrənə biləcəklər", — deyə Çikaqo Tibb Universitetinin alimləri bildiriblər.

Yeni nəsil tibbi xidmət avadanlıqları, nəinki xəstəliklər barədə məsafədən diaqnoz qoymağa, hətta ənənəvi olmayan cərrahiyyə əməliyyatlarını da həyata keçirməyə imkan verəcək. Belə ki, gələcəkdə daxili orqanlardakı cərrahiyyə əməliyyatlarını mikrorobotlar həyata keçirəcək. Zərurət yarandıqda insan dərhal 3D nəşrinin köməyi ilə yeni orqan əldə edə biləcək.

Gələcəkdə müalicəsi çətin, ya da mümkünsüz olan bir çox xəstəliklərdən genləri dəyişmək, ya da o xəstəliyin yaranmasına səbəb olan genlərin fəaliyyətini dayandırmaqla yaxa qurtarmaq mümkün olacaq.

## FOLKLORŞÜNAS ELXAN MƏMMƏDLİ HAQQINDA YENİ KİTAB ÇAP OLUNDU

Bakıda "Ağrıdağ" nəşriyyatında görkəmli folklorşünas alim Elxan Məmmədlinin anadan olmasının 70 illiyi münasibəti ilə "Elxan ömrü, saz ömrü" adlı kitab nəşr edilmişdir.




Redaktoru professor Mahmud Allahmanlı olan bu nəfis kitabda Azərbaycan folklorşünaslığında mühüm xidmətləri olan Elxan Məmmədli barədə dostlarının, həmkarlarının, doğmalarının ürək sözlərindən ibarət yazılara, bu gözəl insanı tanıyan söz adamlarının ona həsr etdikləri şeirlərə yer verilmişdir. Topluda Elxan Məmmədli ilə bağlı ürək sözlərini demiş, onun həyat və yaradıcılığının bu və ya digər sahəsinə ayna tutmağa çalışmış elm, sənət adamlarının adını sadalamaq belə kifayətdir ki, folklorumuzun toplanmasında, araşdırılıb təsnifləşdirilməsində böyük xidmətləri olan, xalqın hər sözünün üstündə əsərək onu üzə çıxarıb, yaşatmaqdan ötrü hər cür əziyyətə qatlaşan bu cəfakeş elm adamının səmimiliyi, nəcibliyi qarşısında baş əyəsən.

"Elxan ömrü, saz ömrü" kitabının özəlliklərindən biri də folklorşünas alim kimi tanıdığımız Elxan müəllimin bədii yaradıcılığından nümunələrlə oxucuları görüşdürməsidir. Bu poetik parçalarla tanış olan oxucu Elxan Məmmədlinin yeni bir keyfiyyətiylə – şairliyi ilə də tanış olmaq imkanı qazanır. İnanırıq ki, kitabda təqdim olunan müxtəlif janrlarda yazılmış poetik nümunələr Elxan Məmmədli şəxsiyyətinin bütövlüyünü gözlər önündə canladırmaqdan yana əvəzsiz qaynaq olacaqdır.

## SABİR ZAMANLININ «ÖMÜR MƏNDƏN İNCİMƏSİN» ADLI KİTABI İŞIQ ÜZÜ GÖRÜB

Həmyerlimiz, gözəl şeirlər müəllifi Sabir Zamanlı növbəti – ikinci şeirlər kitabı ilə oxucuların görüşünə gəlib. Kitab Bakı şəhərindəki "Çaşıoğlu" nəşriyyatında nəşr olunub.




Onu da qeyd edək ki, şairin bu kitabına Azərbaycan poeziyasının sayılıb-seçilən imzalarından olan Musa Yaqub, Balayar Sadiq, Mehman Göytəpəli, Əbülfəz Ülvi, Hikmət Məlikzadə kimi söz adamları öz ürək sözlərini yazıblar. Və onların bu ürək sözlərini Sabir Zamanlının ünvanına deyilmiş xoş sözlər kimi yox, yaradıcılığına verilən qiymət kimi dəyərləndirmək olar.Poetik topluda şairin son illərdə qələmə aldığı şeirlərindən nümunələr toplanıb. Poeziyanın müxtəlif janrlarında yazdığı şeirləriylə Sabir Zamanlı özünün könül çırpıntılarını, dünya yaranandan bu günəcən bəşəriyyətin cavab tapmaq istədiyi əbədi suallara özünəməxsus cavblarını təqdim etməyə çalışır. Yaratdığı petik parçalarda şair Vətənin hər daşını-kəsəyini, hər gülünü-çiçəyini öz dilində danışdırmağa cəhd edir. Sabir poeziyanın dərd-qəm, kədər, eşq-sevgi, sevinc, itki, ağrı-acı kimi əbədi və baş obrazlarına yeni cizgilər, yeni rənglər əlavə etməklə öz poetik dünyasını qurmaq istəyir.

Sabir Zamanlının şeir dünyası ilə tanışlığın ən asan, ən sadə yolu onun"Ömür məndən inciməsin" adlı kitabını əldə edib, tanış olmaqla mümkündür.

## BAŞSAĞLIĞI

Qardabani rayonundakı Kosalı ictimai məktəbinin pedoqoji kollektivi professor Rzaxan Nadir oğlu Mahmudova həyat yoldaşı

**Xalisə Knyaz qızının**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

**Təsisçi:**
*"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"*

***Redaktor:***
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru:***
**Hacı Bəkiroğlu**

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlelik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.